# Azərbaycan və San-Marino arasında iqtisadi imkanların perspektivləri müzakirə olunub

Sentyabrın 8-də iqtisadiyyat və sənaye naziri Şahin Mustafayev Azərbaycanda səfərdə olan San-Marino Respublikasının xarici işlər naziri Paskal Valentini ilə görüşüb.

İqtisadiyyat və Sənaye Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, görüşdə nazir Şahin Mustafayev Azərbaycan və San-Marino arasında siyasi əlaqələrin inkişaf etdiyini, iqtisadi əlaqələrin genişləndiyini vurğulayıb, səfər çərçivəsində iki ölkə arasında imzalanmış ikiqat vergitutmanın aradan qaldırılması, diplomatik və xidməti pasportlara malik şəxslərin vizadan azad edilməsinə dair sənədlərin ölkələrimiz arasında əlaqələrin inkişafına müsbət təsir göstərəcəyini bildirib. Sərmayələrin təşviqi və qarşılıqlı qorunması haqqında Saziş layihəsi isə razılaşdırma mərhələsindədir. İş adamları arasında əlaqələrin



qurulmasının vacibliyini vurğulayan Şahin Mustafayev imzalanmış sənədlərin və qarşılıqlı səfərlərin bu baxımdan əhəmiyyətini qeyd edib, kənd təsərrüfatı, sənaye, neft-kimya, turizm, İKT və alternativ enerji sahələrində əməkdaşlıq imkanlarını diqqətə çatdırıb.

İqtisadiyyat və sənaye naziri Azərbaycan iqtisadiyyatı barədə məlumat verib, ölkəmizin siyasi və makroiqtisadi baxımdan sabit ölkə, dünyada etibarlı tərəfdaş, regionun iqtisadi və mədəni mərkəzi, böyük transmilli layihələrin təşəbbüskarı və əsas iştirakçılarından olduğunu qeyd edib.

Şahin Mustafayev Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsində ölkəmizin ədalətli mövqeyini, Ermənistanın işğalçılıq siyasətinin regional inkişafa əsas maneə olduğunu bir daha diqqətə çatdırıb.

Paskal Valentini qonaqpərvərliyə görə təşəkkür edərək, ölkəsinin inkişaf edən Azərbaycanla əlaqələrin genişləndirilməsində maraqlı olduğunu vurğulayıb. P.Valentini iqtisadi sahədə ölkələrimiz arasında əlaqələrin inkişafına dair fikirlərini bölüşüb, San-Marinonun turizm, İKT və infrastruktur sahələrinə investisiya qoyuluşu imkanlarını qeyd edərək, ölkəsinin iqtisadiyyatına dair məlumat verib.